# LƏNKƏRANDA "OXU BAYRAMI"





**Lənkəran şəhərinin Həzi Aslanov adına istirahət parkında əsl qələbəlik, bayram ovqatı hiss olunurdu. Rayonun mədəniyyət işçiləri, yaradıcı ziyalılar, ağsaqqallar, kütləvi informasiya vasitələrinin və ictimaiyyətin nümayəndələri, məktəblilər, şəhər sakinləri parka toplaşmışdılar. Ümummilli lider Heydər Əliyevin 96 illik, İ.Nəsiminin 650, C. Məmmədquluzadənin 150, C.Cabbarlının 120, İ.Şıxlının 100 illik yubileylərinə həsr edilən kitab sərgiləri, "Uğurlu siyasətin davamçısı", "Lənkəranın igid oğlu Həzi Aslanov", "Milli-mənəvi dəyərlərimiz", "Lənkəran ziyalıları" və müxtəlif adda sərgilər, şagirdlərin əl işləri, rəsm əsərləri diqqəti daha çox cəlb edirdi.**

Lənkəran şəhər mərkəzləşdirilmiş kitabxana sisteminin təşkil etdiyi "Oxu bayramı" ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuşdur. Tədbiri MKS-nin direktoru, "Tərəqqi" medalına layiq görülmüş Nuranə Nəsirova açaraq ümummilli liderin hakimiyyətdə olduğu hər iki dövrdə mədəniyyətin inkişafına, kitabxana sisteminin fəaliyyətinin təkmilləşdirilməsinə, milli-mənəvi dəyərlərimizin qorunmasına yüksək qayğı göstərdiyini, Prezident İlham Əliyevin rəhbərliyilə həmin qayğının bu gün uğurla davam etdirildiyini diqqətə çatdırıb. Dövlətimizin başçısının sərəncamı ilə latın qrafikası ilə çap edilmiş kitabların kitabxana fondunu zənginləşdirdiyini vurğulayan direktor son illər kitaba, mütaliəyə marağın xeyli artdığını bildirib. Ənənəvi kitab bayramının iştirakçılarına xoş ovqat, gözəl əhval-ruhiyyə arzulayıb.

Sonra Lənkəran mədəniyyət mərkəzinin müdiri, yazıçı-publisist Hafiz Mirzə, rayon ağsaqqallar şurasının sədr müavini Sərhad Məmmədov, Lənkəran Dövlət Universitetinin professoru Yədulla Ağazadə, "Xalq qəzeti"nin bölgə müxbiri, şair-publisist Əli Nəcəfxanlı, şairlərdən Etibar Vəliyev, Ağamir Cavad, "Respublika" qəzetinin bölgə müxbiri Əlisəfa Həsənov təbrik sözü söyləyib, hamını kitabı sevməyə, oxumağa, təbliğ etməyə çağırıblar.

Tədbirdə mədəniyyət müəssisələrinin özfəaliyyət kollektivləri, məktəblilər, uşaq bağçalarının balaca fidanları müstəqil Azərbaycana, ümummilli liderə həsr olunmuş mahnı və şeirləri ifa ediblər, bir-birindən maraqlı rəqslər, MKS-nin fəal oxucularının əl işləri, müxtəlif sənət nümunələri nümayiş olunub.

Tədbirin sonunda MKS-nin direktoru N.Nəsirova fəal oxucuların bir qrupuna Fəxri fərman və hədiyyələr təqdim edib.

**Ə.AĞAXANOĞLU,**
**"Respublika".**

2019.- 26 may.- S.5.